# Qarabağın bərpa və inkişaf layihələri regionun tarixi ənənələrinə və gələcək tələbatına əsaslanmalıdır

*Qarabağ ölkəmizin ən gözəl və bərəkətli regionlarından biridir. Bu regionun perspektivləri Azərbaycanın davamlı inkişafı üçün çox vacib olacaq. Regionun bərpası ilə bağlı bizi çox böyük işlər gözləyir.*

*Biz bütün bu yerləri bərpa edəcəyik. Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası – bütün bu planlar var. Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Qarabağın işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuzun parlaq qələbəsi ilə başa çatdı. Biz inanırıq ki, Qarabağın bərpası, hərtərəfli inkişaf etdirilməsi, bölgədə infrastruktur modernləşdirilməsi layihələri də uğurla gerçəkləşdiriləcək.***

***Qarabağı sonsuz yurd sevgisi ilə murdar düşmən tapdağından azad etdiyimiz kimi, ölkəmizin iqtisadi qüdrəti və insanların quruculuq əzmi ilə dirçəldəcək, əvvəlkindən də gözəl, güclü və sevimli bir diyara çevirəcəyik. Quldurxislət işğalçıların daşını daş üstündə qoymadıqları böyük bir regionun yaxın gələcəkdə Azərbaycanın cənnətməkan bir diyarı olaraq inkişaf etdirilməsi, sadəcə olaraq, bir iqtisadçı alimin istəyi, arzusu deyil. Bu irimiqyaslı tarixi proses Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətimizin yeritdiyi qətiyyətli, uzaqgörən siyasət, bütün xalqın maraqlı olduğu ümummilli bir hədəfdir.***




Dövlət başçısının dediyi kimi: "Əminəm, necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq,– cəmi 44 gün ərzində,– bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik". Qarabağın bərpa və inkişafı həm də ölkənin geniş imkanlarına və yerli iqtisadiyyatın zəngin tarixi keçmişinə əsaslanan real bir məqsəddir. Bu nəhəng xarabazarlığı yüksək səviyyədə bərpa və hərtərəfli inkişaf etdirmək, Azərbaycanın iqtisadi cəhətdən güclü və gözəl regionuna çevrilmək üçün bütün imkanlar vardır.

Qarabağ kimi iri və böyük potensialı olan bir bölgədə irimiqyaslı, uzunmüddətli bərpa, dirçəliş və inkişaf prosesinə start verildiyi bir məqamda, bildirək ki, ümumiyyətlə, regionlarda iqtisadiyyatın və bütövlükdə məhsuldar qüvvələrin inkişaf istiqamətləri müəyyən edilərkən hər bir bölgənin fərqli xüsusiyyətləri (iqtisadiyyatın inkişafında tarixən toplanmış təcrübə, inkişafın mövcud vəziyyəti, torpaq, iqlim şəraiti və i.a.) və respublikamızın qarşısında duran ümumi strateji xarakterli vəzifələr nəzərə alınır. Bu baxımdan Qarabağın işğaldan azad edilmiş rayon və şəhərlərinin əvvəlki həyatının yeni keyfiyyətdə bərpa və inkişaf etdirilməsi daha çox özünəməxsusluq kəsb edir.

Qarabağın işğaldan azad edilməsi xalqımızın, dövlətimizin qarşısına yerinə yetirilməsi hamımızın birgə səylərini tələb edən çox mühüm vəzifələr qoyur. Biz işğaldan azad edilmiş rayonların, şəhərlərin, kəndlərin əvvəlki simasını yeni keyfiyyətdə, indiki dövrün tələblərinə uyğun bərpa etməliyik. Etiraf edək ki, bu o qədər də asan vəzifə deyil.

Qarabağın düşməndən azad olunmuş ərazilərində xalqımızın uzun illər yaratdığı maddi, mənəvi sərvətlər dağıdılmış, saxtalaşdırılmışdır. Evlər, məktəblər, yollar, enerji, su təminatı sistemi, səhiyyə müəssisələri talan və məhv edilmişdir. Bizə sinəsi cadar-cadar olan torpaqlar, kol basmış yamaclar, burada vaxtı ilə insanların yaşamış olduğunu göstərən xarabalıqlar qalmışdır. Torpaqların böyük bir hissəsi indiki vəziyyətində kənd təsərrüfatı üçün yararsız hala salınmışdır.

İşğaldan azad olunmuş ərazilərin iqtisadiyyatı tarixən çoxsahəli xarakter daşımışdır. Çünki bu ərazilər Azərbaycanın təbii sərvətlərlə ən zəngin regionlarından biridir. Neft və qaz ehtiyatları nəzərə alınmadan, Azərbaycanda olan faydalı qazıntı ehtiyatlarının 1/3 hissəsindən çoxu işğaldan azad olunmuş ərazilərin payına düşür. Bu region, birinci növbədə, qızıl, kvars-qızıl, mis-qızılkolcedan, qurğuşun, sink, mineral və termal sular, müxtəlif tikinti materialları ilə zəngindir.

Təbii ehtiyatların say və miqdar etibarı ilə böyük bir hissəsi Ermənistanla həmsərhəd olan Zəngilan, Kəlbəcər və Laçın rayonlarının payına düşür. İşğaldan azad olunmuş ərazilər quru-saf iqlimi, qara-məhsuldar torpağı ilə seçilir. Zəngin mədəniyyəti, tarixi istehsal təcrübəsi, əlverişli coğrafi mövqeyi olan regionun təkcə Azərbaycanın rayonlarına deyil, həm də İran, Türkiyə, Ermənistan kimi xarici dövlətlərə birbaşa çıxış imkanları vardır. Bütün bunlar Qarabağın işğaldan azad olunmuş ərazilərində iqtisadiyyatın demək olar ki, bütün sahələrinin yeni keyfiyyətdə bərpası və inkşafına əlverişli şərait yaradır.

Lakin yuxarıda qeyd etdiyimiz kimi işğaldan azad olmuş ərazilərdə canlı insana məxsus nə varsa hamısı tamamilə dağıdılmış və məhv edilmişdir. Hər tərəf minalanaraq həyat üçün təhlükə mənbəyinə çevrilmişdir. İndi ölüm qoxusu saçan torpaqları, uçub-dağılmış yaşayış yerlərini təmizləmək, insanlar üçün yeni həyat və fəaliyyət şəraiti yaratmaq lazımdır. Buna görə də ölkə Prezidentinin təşəbbüsü və rəhbərliyi ilə dövlət səviyyəsində bütün həyatın, təsərrüfat və xidmət sahələrinin yeni keyfiyyətdə bərpası və inkişafını əhatə edən uzunmüddətli strateji xətt və plan bir neçə variantda işlənib hazırlanmaqdadır.

Fikrimizcə, bu problemin həllinə münasibətdə iki mühüm cəhəti də nəzərə almaq lazımdır. Əvvəla, bərpa və inkişaf layihələrinin gerçəkləşdirilməsi mürəkkəb proses olduğuna görə onun həlli yollarına münasibətdə müxtəlif mövqelər, variantlar, yanaşmalar ola bilər. İkincisi, bu planın icrası prosesində ona əlavələr edilməsi, təkmilləşdirmələr aparılması da təbii haldır.

Bu baxımdan biz Qarabağda həyatın yeni keyfiyyətdə bərpası və inkişafı üçün hazırlanan planda aşağıda göstərilən 9 ümumi fəaliyyət istiqaməti müəyyənləşdirməyi, görülməsi nəzərdə tutulan bütün tədbirləri, aparılan elmi-tədqiqat işlərini bu istiqamətlər üzrə cəmləşdirməyi və həyata keçirməyi məqsədəuyğun hesab edirik:

**– ərazilərin minalardan təmizlənməsi də daxil olmaqla əhalinin həyat və fəaliyyəti üçün zəruri şəraitin yaradılması;**

**– əhalinin məskunlaşmasının səmərəli təşkili, şəhər və kəndlərin bərpasına sistemli yanaşma;**

**– iqtisadiyyatın inkişafı üçün hazırda və nisbətən yaxın perspektivdə istifadəsi mümkün olan potensialın müəyyənləşdirilməsi və qiymətləndirilməsi;**

**– mövcud potensialdan səmərəli istifadə etmək, tarixən toplanmış istehsal təcrübəsini qoruyub saxlamaq və məhsulun xarici bazarlara çıxış imkanlarını genişləndirmək prinsiplərini rəhbər tutaraq iqtisadiyyatın bərpa və inkişaf istiqamətlərini müəyyənləşdirmək;**

**– regionda həyatın yeni keyfiyyətdə bərpası və inkişafının maliyyə təminatı mənbələrini və imkanlarını müəyyənləşdirmək;**

**– regionun hazırda istifadəsi mümkün olan təbii resurs və sərvətlərindən səmərəli istifadə etmək, xarici bazarlara məhsul çıxarmaq, əsasən azərbaycanlı vətəndaşları işə cəlb etməklə sənayedə sahibkarlığı formalaşdırmaq;**

**– torpağın istifadə edənlər (sahibkarlar, həyətyanı sahələr) arasında məqsədyönlü bölüşdürülməsi, ehtiyat torpaq fondunun saxlanması və bütövlükdə, torpaqdan səmərəli istifadə etməklə kənd təsərrüfatında sahibkarlığı formalaşdırmaq;**

**– növbəlilik və sonradan regionun bu sahədə bütün imkanlarından səmərəli istifadə etməklə turizmin təşkili;**

**– orta, ibtidai təhsil və peşəixtisas məktəblərinin, tədricən ali təhsil və elmi-tədqiqat mərkəzlərinin təşkili.**

Əlbəttə, bu istiqamətlərə nəyi isə əlavə etmək, təkmilləşdirmələr aparmaq da olar. Lakin bütün hallarda probleme belə sistemli yanaşma bu mürəkkəb və çoxşaxəli prosesdə pərakəndəliyi aradan qaldırar və çətinliklərin həllini nisbətən asanlaşdırar.

Biz bundan əvvəlki yazımızda göstərmişdik ki, işğaldan azad olunmuş ərazilərdə 3 şəhərin regional mədəni-iqtisadi mərkəz kimi inkişafına müəyyən dərəcədə üstünlük vermək olar. Belə şəhərlər, adətən, əhalisi gündəlik funksional əlaqədə olan ərazilər üçün təşkiledicitənzimləyici mərkəz rolunu oynayır. Lakin bu rolun istiqaməti, səviyyəsi şəhərin özünün regionda coğrafi mövqeyindən, inkişaf səviyyəsindən, böyüklüyündən və s. asılı olur. Bu baxımdan Şuşa şəhəri tamamilə fərqli xüsusiyyətlərə malikdir.

Öz coğrafi mövqeyinə, təbii və tarixi xüsusiyyətlərinə görə, Şuşa yalnız Azərbaycanda deyil, dünyada az təsadüf oluna bilən şəhərdir. Ölkə Prezidenti İlham Əliyev bu şəhəri heç də təsadüfən Azərbaycan mədəniyyətinin paytaxtı elan etməyib. Biz isə elə etməliyik ki, Şuşa şəhəri Azərbaycanın yalnız tarixən formalaşmış mədəniyyətinin paytaxtına deyil, həm də müasir mədəniyyətinin paytaxtına, daşıyıcısına və təbliğat mərkəzinə çevrilsin.

Dövlət başçısı İlham Əliyevin müvafiq sərəncam və göstərişləri ilə artıq işğaldan azad edilmiş ərazilərdə ilk zəruri bərpa işlərinə başlanıb. Prezident Şuşaya səfəri zamanı yolüstü Füzuli beynəlxalq aeroportunun təməlqoyma mərasimində təntənəli surətdə bəyan etdi: "Şuşa şəhəri mənim tərəfimdən Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Şuşa şəhərinin bərpası və tarixi simasının özünə qaytarılması istiqamətində işlərə start verildi. Bütövlükdə, müharibədən cəmi iki ay vaxt keçib, ancaq böyük quruculuq işlərinə start verildi".

Şuşa şəhərində binalar müasir memarlıq üslubunda tikilməli, turizmin inkişaf imkanları nəzərə alınmalı, şəhərin quru təmiz havası və müalicə-sağlamlıq mərkəzi kimi funksiyası qorunub saxlanmalıdır. Şəhərdə insanlara bütün xidmət növlərinin yüksək səviyyədə nümunəvi təşkili təmin olunmalıdır.

Yəqin ki, Şuşa şəhərinin dövlət səviyyəsində bərpa və inkişaf planı işlənib hazırlanarkən bu və ya belə xarakterli digər tələblər nəzərə alınacaqdır. Bu gün bunlar istəkdir, arzudur. İnanırıq ki, sabah reallaşmış həqiqət olacaqdır.

Lakin Şuşada həddindən artıq müxtəlif istehsal və xidmət müəssisələri yerləşdirib, onun böyük şəhərə çevrilməsinə çalışmaq düzgün olmaz. Bu onun təbiətinə, kurort-sağlamlıq mərkəzi kimi əhəmiyyətinə ziyan verə bilər. Fikrimizcə, işğaldan azad olunmuş ərazidə daha iki şəhərin regional mədəni-iqtisadi mərkəz kimi inkişafına üstünlük vermək olar. Bunlar, bütövlükdə, Qarabağda məhsuldar qüvvələrin səmərəli ərazi təşkilini, həm də respublikamızda mədəni-iqtisadi mərkəz rolunu oynaya bilən şəhərlərin düzgün bölüşdürülməsi mənafeyini nəzərə almaqla müəyyən edilə bilər.

Qarabağda mərkəz kimi inkişaf etdiriləcək şəhərlərdən biri də, ehtimal ki, Füzulidir. Burada beynəlxalq aeroportun tikilməsi bunun üçün əlverişli şərait yaradır. Üçüncü şəhəri də idarəetmənin təkmilləşməsi, respublikamızın ərazisində mədəni-iqtisadi mərkəz rolunu oynaya bilən şəhərlərin nisbətən bərabər bölüşdürülməsi və Qarabağın ümumi inkişafı mənafeyini nəzərə almaqla müəyyən etmək olar.

Təbiidir ki, dövlət səviyyəsində bütün təsərrüfat və xidmət sahələrinin yeni keyfiyyətdə bərpası və inkişafını əhatə edən uzunmüddətli (təqribən, 10 il müddətinə) strateji xətt, plan və proqram hazırlanıb həyata keçiriləcəkdir. Artıq ölkə rəhbəri İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə bu istiqamətlərdə təşkilati və praktiki fəaliyyət və tədbirlər geniş vüsət almaqdadır. Fikrimizcə, təsərrüfat və xidmət sahələrinin keyfiyyətli bərpası və inkişafı məsələlərinin həllində növbəlilik, ardıcıllıq müəyyənləşdirilməlidir.

İrimiqyaslı, uzunmüddətli bərpa və inkişaf posesində öz yurdlarına qayıdacaq insanların həyat və fəaliyyəti üçün ən zəruri şəraitin təmin edilməsi birinci plana keçməlidir. Prezident İlham Əliyev, çox haqlı olaraq, Qarabağ əraziləri işğaldan azad edilən andan su, enerji, yol, səhiyyə kimi insanın həyat və fəaliyyəti üçün zəruri olan sahələrin bərpasına göstəriş verdi. Su həyatın özüdür, yol müasir həyatın qan damarlarıdır, enerji fəaliyyət və inkişafın hərəkətverici qüvvəsidir, səhiyyə Qarabağa qayıdacaq insanların sağlamlığının və işgüzarlığının qorunmasının vacib şərtləridir.

İstehsal və sosial infrastruktur sahələrinin bu istiqamətlərdə inkişafı bir tərəfdən işğaldan azad olmuş rayonların, bütövlükdə, Qarabağ bölgəsinin iqtisadiyyatının vahid bir regional sistem kimi inkişafına, digər tərəfdən Ermənistanla həmsərhəd rayonlarla Azərbaycanın digər əraziləri arasında ikitərəfli əlaqələrin inkişafına şərait yaratmalıdır.

Kəndlərarası mərkəzlərin yaranması və inkişafı yerli əmək ehtiyatlarından istifadənin yaxşılaşmasına, şəhərlərə əhali axınının nisbətən azalmasına, şəhər həyat tərzinin nisbətən bərabər yayılmasına əlverişli şərait yaradar. İşğaldan azad olunmuş başqa rayonlarda kəndlərarası mərkəzlər istisna olmaqla, qalan yerlərdə ilk dövrdə bərpa və inkişaf, əsasən, əhalinin öz təşəbbüsü və vəsaiti hesabına həyata keçirilə bilər. Bir qədər sonra həyat öz axarına düşəndə bu kəndlərin də perspektiv inkişaf yolları daha aydın görünəcək.

İstehsal sahələrini bərpa edərkən, birinci növbədə, xalqın tarixən zəngin təcrübə toplamış olduğu sahələrin yeni şəraitin tələblərinə uyğun bərpasına diqqət yetirilməlidir. Məlumdur ki, işğaldan azad olunmuş ərazilərin iqtisadiyyatı tarixən çoxsahəli xarakter daşımışdır. Qarabağın zəngin təbiəti, əlverişli coğrafi mövqeyi burada istehsal və xidmət sahələrinin kompleks inkişafına şərait yaradır.

Bu ərazilərdə əvvəllər cihazqayırma, tikinti materialları, mineral sular istehsalı, yüngül sənaye, xüsusilə xalçaçılıq, ipəkçilik, yeyinti sənaye sahələri inkişaf etmişdi. Qarabağ Azərbaycanın xalçaçılıq inkişaf etmiş əsas regionlarından biri idi. İşğaldan azad olunmuş ərazilərdə bu sahələrin inkişaf imkanlarının birinci növbədə öyrənilməsi və potensialdan səmərəli istifadə daha məqsədəuyğun olardı.

Məqsəd Qarabağı onun böyük imkanlarına uyğun olaraq hərtərəfli inkişaf etdirmək, modernləşdirmək, Azərbaycanın zəngin və iqtisadi cəhətdən ən güclü regionlarından birinə çevirməkdir.

***Əli NURİYEV,***
***AMEA-nın müxbir üzvü,***
***Əməkdar elm xadimi***